| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 13.10.2017 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 429 |
| **ADI** | “Azərbaycan Respublikasının xarici ölkələrdə ticarət nümayəndəsi və onun aparatı haqqında Əsasnamə”nin və “Azərbaycan Respublikasının xarici ölkələrdə ticarət nümayəndəsinin aparatının nümunəvi strukturu”nun təsdiq edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Xalq Qəzeti (Dərc olunma tarixi: 17-10-2017, Nəşr Nömrəsi: 227), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-10-2017, Nəşr nömrəsi: 10, Maddə nömrəsi: 1892) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 17.10.2017 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 430.030.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 14201710130429 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 18.10.2017 |

**“Azərbaycan Respublikasının xarici ölkələrdə ~~fəaliyyət göstərən səfirlik və konsulluqlarında~~ ticarət nümayəndəsi və onun aparatı haqqında Əsasnamə”nin və “Azərbaycan Respublikasının xarici ölkələrdə ~~fəaliyyət göstərən səfirlik və konsulluqlarında~~ ticarət nümayəndəsinin aparatının nümunəvi strukturu”nun təsdiq edilməsi barədə**[1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Azərbaycan Respublikasının xarici ölkələrdə ~~fəaliyyət göstərən səfirlik və konsulluqlarında~~ ticarət nümayəndələrinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 sentyabr tarixli 1588 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərbaycan Respublikasının xarici ölkələrdə ~~fəaliyyət göstərən səfirlik və konsulluqlarında~~ ticarət nümayəndəsi və onun aparatı haqqında Əsasnamə” təsdiq edilsin (1 nömrəli əlavə).

2. “Azərbaycan Respublikasının xarici ölkələrdə ~~fəaliyyət göstərən səfirlik və konsulluqlarında~~ ticarət nümayəndəsinin aparatının nümunəvi strukturu” təsdiq edilsin (2 nömrəli əlavə).

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 13 oktyabr 2017-ci il
429

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2017-ci il 13 oktyabr tarixli 429 nömrəli qərarı ilə
**təsdiq edilmişdir.**

**1 nömrəli əlavə**

**Azərbaycan Respublikasının xarici ölkələrdə ~~fəaliyyət göstərən səfirlik və konsulluqlarında~~ ticarət nümayəndəsi və onun aparatı haqqında**[2]

**ƏSASNAMƏ**

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə “Azərbaycan Respublikasının xarici ölkələrdə ~~fəaliyyət göstərən səfirlik və konsulluqlarında~~ ticarət nümayəndələrinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 sentyabr tarixli 1588 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır və Azərbaycan Respublikasının xarici ölkələrdə ~~fəaliyyət göstərən səfirlik və konsulluqlarında~~ ticarət nümayəndəsinin (bundan sonra – ticarət nümayəndəsi) və onun aparatının fəaliyyət qaydalarını müəyyən edir.

1.2. Ticarət nümayəndəsi və onun aparatı öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnaməni, digər qanunvericilik aktlarını, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiya qərarlarını, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin əmr və sərəncamlarını (bundan sonra - təşkilati-sərəncamverici sənədlər), bu Əsasnaməni rəhbər tutur və *təyin olunduğu* ölkənin qanunvericiliyini nəzərə alır.[3]

1.3. Ticarət nümayəndəsi və onun aparatı səfirliyin və ya konsulluğun binasından kənarda yerləşdikdə, onun yerləşdiyi binada və ya onun ərazisində Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasının Dövlət bayrağı qaldırılır və Azərbaycan Respublikası Dövlət gerbinin təsviri və Azərbaycan dilində və təyin olunduğu dövlətin dövlət dilində (dillərində) “Azərbaycan Respublikasının *(Azərbaycan Respublikasının səfirliyi və ya konsulluğunun mövcud olduğu ölkə üzrə təyin olunduğu səfirlik və ya konsulluğun adı, Azərbaycan Respublikasının səfirlik və ya konsulluğunun mövcud olmadığı ölkə üzrə isə müvafiq ölkənin adı)* ticarət nümayəndəsi” yazısı olan lövhə vurulur.[4]

1.4. Ticarət nümayəndəsinin və onun aparatının istifadəsində olan Azərbaycan Respublikasının mülkiyyəti olan daşınar və ya daşınmaz əmlak ticarət nümayəndəsinə təhkim edilir.

1.5. Ticarət nümayəndəsinin və onun aparatının saxlanılması xərcləri və fəaliyyətinin maliyyələşdirilməsi Azərbaycan Respublikasının dövlət büdcəsindən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə ayrılan vəsaitlər və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına həyata keçirilir.

1.6. Ticarət nümayəndəsi müvafiq bank hesablarına, üzərində onun vəzifəsi və Azərbaycan Respublikası Dövlət gerbinin təsviri həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

1.7. Ticarət nümayəndəsi, onun aparatının işçiləri və onların ailə üzvləri təyin olunduqları dövlətin ərazisində beynəlxalq müqavilələrə uyğun olaraq imtiyaz və immunitetlərdən istifadə edirlər.

## 2. Ticarət nümayəndəsinin fəaliyyət istiqamətləri

2.1. “Azərbaycan Respublikasının xarici ölkələrdə ~~fəaliyyət göstərən səfirlik və konsulluqlarında~~ ticarət

nümayəndələrinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 26 yanvar tarixli 1217 nömrəli Fərmanının 2.1-ci bəndinə uyğun olaraq, ticarət nümayəndəsi təyin olunduğu ölkə ilə Azərbaycan Respublikasının iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi və iqtisadi maraqlarının qorunması, Azərbaycan mallarının və xidmətlərinin ixracının artırılması, ölkəmizin biznes mühitinin və investisiya imkanlarının təbliği istiqamətində tədbirlər görür.

### 3. Ticarət nümayəndəsinin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, ticarət nümayəndəsinin vəzifələri aşağıdakılardır:

3.1.1. təyin olunduğu ölkə ilə Azərbaycan Respublikasının iqtisadi-ticarət əlaqələrini genişləndirmək, bu məqsədlə iqtisadi-ticarət əlaqələrinin vəziyyətini təhlil etmək, müvafiq istiqamətdə təkliflər hazırlamaq və onları həyata keçirmək;

3.1.2. təyin olunduğu ölkədə ölkəmizin və yerli ixracatçıların iqtisadi-ticarət maraqlarını qorumaq və təmsil etmək, bu məqsədlə tədbirlər hazırlamaq və həyata keçirmək;

3.1.3. Azərbaycan mallarının və xidmətlərinin təyin olunduğu ölkənin bazarlarına çıxışının genişləndirilməsi üçün tədbirlər görmək, müvafiq təkliflər hazırlayaraq həyata keçirmək;

3.1.4. ixracın stimullaşdırılması ilə bağlı həyata keçirilən tədbirlərin təşkilində iştirak etmək və bu tədbirlərin səmərəliliyinin artırılması ilə bağlı tədbirlər görmək;

3.1.5. Azərbaycan Respublikasının və təyin olunduğu ölkənin fiziki və hüquqi şəxsləri arasında işgüzar əlaqələrin qurulmasına köməklik göstərmək;

3.1.6. təyin olunduğu ölkədə Azərbaycan Respublikasının fiziki və hüquqi şəxslərinin qarşılaşdığı problemləri öyrənmək və həlli istiqamətində müvafiq tədbirlər görmək, bu məqsədlə təkliflər hazırlamaq və həyata keçirmək;

3.1.7. Azərbaycan malları və ya xidmətlərinin, ölkəmizin investisiya mühitinin təyin olunduğu ölkələrdə təbliği istiqamətində tədbirlər həyata keçirmək;

3.1.8. təyin olunduğu ölkənin bazarlarına Azərbaycan malları və ya xidmətlərinin çıxışına, həmin bazarda tələbata və mövcud təkliflərə və təyin olunduğu ölkələrin idxal-ixrac, daxili bazarda satış tələblərinə dair məlumatlar hazırlamaq, həmin məlumatları aidiyyəti dövlət orqanlarına təqdim etmək, habelə Azərbaycan Respublikasının fiziki və hüquqi şəxslərinə çatdırılması üçün tədbirlər görmək;

3.1.9. təyin olunduğu ölkədə Azərbaycan Respublikasının ticarət-iqtisadi maraqlarına toxuna biləcək tədbirlərə dair məlumatlar hazırlamaq, həmin məlumatları aidiyyəti dövlət orqanlarına təqdim etmək, belə halların aradan qaldırılması istiqamətində tədbirlər görmək;

3.1.10. təyin olunduğu ölkədə həyata keçirilən dövlət satınalmaları, satın alınan mallar və xidmətlər barədə məlumatlar hazırlamaq, həmin məlumatların Azərbaycan Respublikasının müvafiq malları və xidmətləri təchiz edə biləcək fiziki və hüquqi şəxslərinə çatdırılması ilə bağlı tədbirlər görmək;

3.1.11. təyin olunduğu ölkə ilə Azərbaycan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq sahəsində fəaliyyət göstərən hökumətlərarası komissiyaların, işçi qruplarının fəaliyyətinə köməklik göstərmək;

3.1.12. təyin olunduğu ölkə ilə Azərbaycan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq sahəsində dövlətlərarası və ya hökumətlərarası danışıqların təşkilində və aparılmasında, bu sahədə beynəlxalq müqavilələrin razılaşdırılmasında və bağlanılmasında iştirak etmək;

3.1.13. təyin olunduğu ölkə ilə Azərbaycan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq sahəsində beynəlxalq müqavilələrin icrasına köməklik göstərmək;

3.1.14. təyin olunduğu ölkəyə Azərbaycan malları və xidmətlərinin ixracı ilə bağlı yaranan maneələri öyrənmək və belə maneələrin aradan qaldırılması üçün tədbirlər görmək, bu məqsədlə təkliflər hazırlamaq və onları həyata keçirmək;

3.1.15. fəaliyyət istiqamətlərinə uyğun olaraq, qanunvericilikdə nəzərdə tutulan digər vəzifələri yerinə yetirmək.

### 4. Ticarət nümayəndəsinin hüquqları

4.1. Ticarət nümayəndəsinin öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

4.1.1. fəaliyyət istiqamətlərinə və vəzifələrinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

4.1.2. bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinin və vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar təyin olunduğu xarici ölkədə dövlət orqanlarına, hüquqi və fiziki şəxslərə, həmçinin Azərbaycan Respublikasının dövlət orqanlarına, hüquqi və fiziki şəxslərinə müvafiq qaydada sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri) almaq;

4.1.3. fəaliyyət istiqamətləri və vəzifələri üzrə təyin olunduğu ölkənin dövlət orqanları və işgüzar dairələri ilə əlaqələr qurmaq;

4.1.4. yaradılmış komissiyalarda, işçi qruplarında, fəaliyyət istiqamətləri və vəzifələri üzrə keçirilən müxtəlifsəviyyəli yerli və beynəlxalq tədbirlərdə və layihələrdə iştirak etmək;

4.1.5. fəaliyyət istiqamətləri və vəzifələri üzrə ölkə daxilində və xarici ölkələrdə tədbirlər təşkil etmək, habelə keçirilən tədbirlərdə və bu kimi tədbirlərin keçirilməsinin təşkilində iştirak etmək;

4.1.6. fəaliyyət istiqamətlərinə və vəzifələrinə uyğun olaraq, qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

### 5. Ticarət nümayəndəsinin aparatının fəaliyyət istiqamətləri, vəzifələri və hüquqları

5.1. Ticarət nümayəndəsinin aparatı ticarət nümayəndəsinin cari fəaliyyətinin təşkili istiqamətində tədbirləri həyata keçirir.

5.2. Ticarət nümayəndəsinin aparatı fəaliyyət istiqamətlərinə uyğun olaraq, aşağıdakı vəzifələri həyata keçirir:

5.2.1. ticarət nümayəndəsinin fəaliyyəti ilə bağlı metodiki sənədlərin, məktubların və digər sənədlərin layihələrini hazırlayır;

5.2.2. ticarət nümayəndəsinin fəaliyyəti ilə bağlı daxil olan layihələri, təklifləri, müraciət və sənədləri təhlil edir, onları araşdırır və təkliflər hazırlayır;

5.2.3. ticarət nümayəndəsi tərəfindən verilmiş tapşırıqların icrasını təmin edir;

5.2.4. bu Əsasnaməyə əsasən ticarət nümayəndəsinə həvalə edilmiş vəzifə və hüquqların həyata keçirilməsi ilə bağlı təşkilati tədbirlərin görülməsini təmin edir;

5.2.5. ticarət nümayəndəsinin iş planının layihəsini hazırlayır, ticarət nümayəndəsinin fəaliyyəti ilə bağlı dövrlər üzrə hesabatlar tərtib edir;

5.2.6. fəaliyyət istiqamətlərinə uyğun olaraq, qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirir.

5.3. Ticarət nümayəndəsinin aparatı öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

5.3.1. fəaliyyət istiqamətlərinə və vəzifələrinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar və təkliflər hazırlamaq;

5.3.2. aparatın fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

5.3.3. fəaliyyət istiqamətlərinə və vəzifələrinə uyğun olaraq, qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 6. Ticarət nümayəndəsinin və onun aparatının fəaliyyətinin təşkili

6.1. Ticarət nümayəndəsi Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla, Azərbaycan Respublikasının iqtisadiyyat naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

6.2. Ticarət nümayəndəsinə “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 9.1-ci maddəsində nəzərdə tutulan qaydada ikinci dərəcəli Fövqəladə və Səlahiyyətli Elçi diplomatik rütbəsi verilir və “Pasportlar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, ticarət nümayəndəsi diplomatik pasportla təmin edilir.

*6.3. Ticarət nümayəndəsi Azərbaycan Respublikasının səfirlik və ya konsulluğunun mövcud olduğu ölkələrdə müvafiq səfirlik və ya konsulluqda təyin olunur və öz funksiyalarını təyin olunduğu səfirlik və ya konsulluğun tərkibində həyata keçirir, Azərbaycan Respublikasının səfirlik və ya konsulluğunun mövcud olmadığı ölkələrdə isə ayrıca fəaliyyət göstərir.*[5]

6.4. Ticarət nümayəndələri və onların aparatları Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin strukturuna daxildir.

6.5. Ticarət nümayəndəsi ona həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi üçün şəxsən məsuliyyət daşıyır və Azərbaycan Respublikasının iqtisadiyyat nazirinə tabedir. Konsulluğa təyin olunan ticarət nümayəndəsi Azərbaycan Respublikasının həmin ölkədəki səfirliyinə təyin edilmiş ticarət nümayəndəsinin ümumi rəhbərliyi altında fəaliyyət göstərir. Ticarət nümayəndəsinin aparatının işçiləri ticarət nümayəndəsi tərəfindən onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyırlar.

6.6. Ticarət nümayəndələrinin aparatlarının işçilərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi Azərbaycan Respublikasının iqtisadiyyat naziri tərəfindən həyata keçirilir. Ticarət nümayəndəsinin aparatına ştatdankənar işçilərin işə qəbul edilməsi bu məqsəd üçün xərclər smetasında nəzərdə tutulmuş vəsaitlər dairəsində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırılmaqla, ticarət nümayəndəsi ilə işçi arasında bağlanılmış müqavilə əsasında həyata keçirilir.

6.7. Ticarət nümayəndəsi olmadıqda, onun səlahiyyətləri Azərbaycan Respublikasının iqtisadiyyat naziri tərəfindən ticarət nümayəndəsi aparatının işçilərindən birinə həvalə edilir.

6.8. Ticarət nümayəndələrinin aparatlarının işçilərinin sayını və ştat cədvəllərini ticarət nümayəndəsinin təyin olunduğu *ölkə*, səfirlik və ya konsulluqlar üzrə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla təsdiq edir.[6]

6.9. Ticarət nümayəndələrinin aparatlarının maddi-texniki və maliyyə təminatını Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir.

6.10. Ticarət nümayəndələrinə və onların aparatlarının işçilərinə verilən təminatlar Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunur.

6.11. Ticarət nümayəndəsi və onun aparatı müəyyən edilmiş qaydada xüsusi rabitə ilə təmin olunur.

6.12. Ticarət nümayəndəsinin və onun aparatının xərclər smetası Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilir.

6.13. Ticarət nümayəndəsi:

6.13.1. ticarət nümayəndəsinin aparatının fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

6.13.2. kargüzarlığın aparılmasını, arxiv işini, vətəndaşların qəbulunu təşkil edir, vətəndaşların təklif, ərizə və şikayətlərinə baxılmasını təmin edir və qanunvericiliklə müəyyən edilmiş qaydada digər tədbirlər görür;

6.13.3. ticarət nümayəndəsi aparatının işçiləri arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

6.13.4. ona həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədi ilə hazırlanmış iş planlarını təsdiq edilməsi üçün Azərbaycan Respublikasının iqtisadiyyat nazirinə təqdim edir, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə icra edilməsinə nəzarət edir;

6.13.5. ona həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədi ilə əqdlər bağlayır və digər hüquqi hərəkətlər həyata keçirir, məhkəmədə iddiaçı və cavabdeh kimi çıxış edir;

6.13.6. ticarət nümayəndəsinin aparatının işçilərinə icrası məcburi olan göstərişlər verir;

6.13.7. ona həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədi ilə məktubları və digər sənədləri imzalayır;

6.13.8. fəaliyyət istiqamətləri və vəzifələri üzrə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasında müzakirə olunmalı məsələləri müəyyən edir və bu barədə təkliflərini Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyinə təqdim edir, habelə bu Əsasnamənin 1.2-ci bəndində göstərilən qanunvericilik aktlarının və təşkilati-

sərəncamverici sənədlərin vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

6.13.9. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

6.13.10. ticarət nümayəndəsi aparatının işçiləri barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi, habelə təşkilati-sərəncamverici sənədlərin qəbul edilməsi üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyinə təqdimatlar verir;

6.13.11. qanunvericiliyə uyğun olaraq, fəaliyyət prosesində xidməti məlumatların, dövlət və kommersiya sirlərinin qorunmasını təmin edir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2017-ci il 13 oktyabr tarixli 429 nömrəli qərarı ilə
**təsdiq edilmişdir.**

**2 nömrəli əlavə**

## Azərbaycan Respublikasının xarici ölkələrdə ~~fəaliyyət göstərən səfirlik və konsulluqlarında~~ ticarət nümayəndəsinin aparatının nümunəvi strukturu[7]

| **Sıra -si** | **Vəzifələrin adları** |
|---|---|
| **1.** | Ticarət nümayəndəsi |
| **2.** | Baş məsləhətçi |
| **3.** | Məsləhətçi |
| **4.** | Mütəxəssis |

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

1. 4 dekabr 2021-ci il tarixli **382** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 8 dekabr 2021-ci il, 266, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1508**)

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

---

[1] 4 dekabr 2021-ci il tarixli **382** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 8 dekabr 2021-ci il, 266, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1508**) ilə adından (hər iki halda), preambuladan, 1-ci və 2-ci hissələrdən "**fəaliyyət göstərən səfirlik və konsulluqlarında**" sözləri çıxarılmışdır.

[2] 4 dekabr 2021-ci il tarixli **382** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 8 dekabr 2021-ci il, 266, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1508**) ilə "Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndəsi və onun aparatı haqqında Əsasnamə"nin adından, 1.1-ci (hər iki halda) və 2.1-ci bəndlərdən "**fəaliyyət göstərən səfirlik və konsulluqlarında**" sözləri çıxarılmışdır.

[3] 4 dekabr 2021-ci il tarixli **382** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 8 dekabr 2021-ci il, 266, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1508**) ilə "Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndəsi və onun aparatı haqqında Əsasnamə"nin 1.2-ci bənddə "**müvafiq səfirlik və konsulluğun yerləşdiyi**" sözləri "**təyin olunduğu**" sözləri ilə əvəz edilmişdir.

[4] 4 dekabr 2021-ci il tarixli **382** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 8 dekabr 2021-ci il, 266, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1508**) ilə "Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndəsi və onun aparatı haqqında Əsasnamə"nin 1.3-cü bənddə "(**xarici ölkədəki səfirlik və ya konsulluğun adı**)" sözləri "(**Azərbaycan Respublikasının səfirliyi və ya konsulluğunun mövcud olduğu ölkə üzrə təyin olunduğu səfirlik və ya konsulluğun adı, Azərbaycan Respublikasının səfirlik və ya konsulluğunun mövcud olmadığı ölkə üzrə isə müvafiq ölkənin adı**)" sözləri ilə əvəz edilmişdir.

[5] 4 dekabr 2021-ci il tarixli **382** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 8 dekabr 2021-ci il, 266, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1508**) ilə "Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndəsi və onun aparatı haqqında Əsasnamə"nin 6.3-cü bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~6.3. Ticarət nümayəndəsi öz funksiyalarını təyin olunduğu səfirlik və konsulluqların tərkibində həyata keçirir.~~

[6] 4 dekabr 2021-ci il tarixli **382** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 8 dekabr 2021-ci il, 266, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1508**) ilə "Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndəsi və onun aparatı haqqında Əsasnamə"nin 6.8-ci bəndə "**təyin olunduğu**" sözlərindən sonra "**ölkə,**" sözü əlavə edilmişdir.

[7] 4 dekabr 2021-ci il tarixli **382** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 8 dekabr 2021-ci il, 266,**

**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1508**) ilə "Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndəsinin aparatının nümunəvi strukturu"nun adından "**fəaliyyət göstərən səfirlik və konsulluqlarında**" sözləri çıxarılmışdır.